




HADİSƏLƏR KONTEKSTİNDƏ



# Təhsilimizin flaqmanı BDU zəngin tarixi ilə gənclərə yol göstərir

***Azərbaycanın ilk ali təhsil müəssisəsi - Bakı Dövlət Universiteti 1919-cu ildə açılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Hökumətinin təhsil sahəsində uğurlu siyasətinin nəticələrindən biri XX əsr Azərbaycan təhsili, elm və mədəniyyəti tarixinə şanlı səhifələr yazmış, "Avropa ilə Asiyanın qovşağında yeni çıraq" adlandırılan Bakı Dövlət Universitetinin (BDU) yaradılmasıdır.***








Müsəlman Şərq dünyasına respublika məfkurəsini və demokratik idarə üsulunu gətirən Azərbaycan xalqının və dövlətinin həyata keçirdiyi tarixi hadisələrdən biri də BDU-nun yaradılması olub. Dövrün ağır və mürəkkəb beynəlxalq şərtlərinə, xarici təhdidlərə, kəskin maliyyə və kadr çatışmazlığına baxmayaraq, milli hökumət ölkədə təhsilin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirib. Ən böyük nailiyyətlərdən biri olan Bakı Dövlət Universiteti xalqımızın təfəkküründə yeniliklər formalaşdırıb.

1919-cu il sentyabrın 8-də Bakı Dövlət Universitetinin rektor və dekanlarının təsdiq edilməsi haqqında hökumət tərəfindən qərar qəbul olunub. Həmin qərara əsasən operativ cərrahiyyə kafedrasının professoru V.İ.Razumovski Bakı Dövlət Universitetinin rektoru, patoloji anatomiya kafedrasının professoru İ.İ.Şirokoqorov isə tibb fakültəsinin dekanı vəzifəsinə təsdiq edilib. Universitet Komissiyası tərəfindən seçilmiş fakültə terapevtik klinikası kafedrasının professoru A.M.Levin, tibb fakültəsinin dekanı və həmin kafedranın dosenti N.A.Dubrovski isə tarix-filologiya fakültəsinin dekanı vəzifələrinə təyin edilib. Ötən illər ərzində bu universitetin həyatında bir çox tarixi məqamlar olub. Məsələn, Azərbaycan xalqının yaddaşından təhsil ocağının əsl yaradıcılarının adlarını silmək üçün 1924-cü ildə universitetə bolşeviklərin rəhbəri V.İ.Leninin adı verilib. Lakin dövlət müstəqilliyimizin bərpasından sonra 1991-ci ildə isə Bakı Dövlət Universitetinə bu ali təhsil ocağının yaradılmasında fəal iştirak etmiş M.Ə.Rəsulzadənin adı verilib. 2001-ci ildə bu ali təhsil ocağı ilk təsis edildiyi kimi, Bakı Dövlət Universiteti adı ilə təsdiqlənib.

Bakı Dövlət Universitetinin yüksəliş dövrü keçən əsrin ortalarından başlayır. Belə ki, 1944-1950-ci illərdə akademik Abdulla İsmayıl oğlu Qarayev, 1950-1954-cü illərdə professor Cəfər Xəndan Zeynal oğlu Hacıyev, 1954-1958-ci illərdə akademik Yusif Heydər oğlu Məmmədəliyev, 1958-1965-ci illərdə akademik Şəfayət Fərhad oğlu Mehdiyev kimi ziyalılar bu elm ocağına rəhbərlik ediblər.

Universitetin tarixində ən mühüm hadisələrdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin BDU-nun tarix fakültəsini bitirməsidir. 1994-cü ildə universitetin 75 illik yubileyi münasibətilə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yubiley komissiyası yaradılmışdı. Təntənəli yubiley mərasimində ulu öndərin geniş nitqi isə illər keçsə də, yaddaşlardan silinmir: "Keçmişdə tariximizi yazarkən bəzən o tərəfə, ya da bu tərəfə əyilirdik. İndi isə müstəqil Azərbaycan Respublikasında öz məmləkətimizin, öz taleyimizin sahibi olduğumuz halda, müstəqil siyasət apardığımız halda, gərək tariximiz doğru, düzgün, ədalətli, obyektiv yazılsın. Universitetin 50 illiyi, 60 illiyi qeyd olunmuşdur. Amma təəssüf ki, 70 illiyi nədənsə qeyd edilməmişdir. Bunu yaddan çıxarmışlar. İndi 75 illiyi qeyd olunur. Bu 75 illik tarixi ədalətli, düzgün yazmaq üçün indi ən gözəl şərait yaranmışdır. Amma bu, təkcə universitetin tarixi deyil, bu, Azərbaycan xalqının tarixidir. Azərbaycan Respublikasının tarixidir, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tarixidir. Ona görə də bunu təhrif etmək olmaz".

Bir zamanlar universitet deyəndə insanların ağlına gələn ilk təhsil ocağı məhz BDU olurdu. İllərdir cəmiyyətin həyatında özünəməxsus yer tutan Bakı Dövlət Universiteti fəaliyyətini uğurla davam etdirir. Bu gün Azərbaycan gənclərinin gələcəyə əmin addımlarla irəliləməsində universitetin rolu danılmazdır. Azərbaycan və bir çox xarici ölkə gənclərinin hər il minlərlə tələbə qəbul edən ali təhsil müəssisəsini seçmə səbəbi onun qədim tarixi ilə bağlıdır. Bakı Dövlət Universitetindən yeni məzun olmuş Ələkbər Mansurlu deyir ki, mən qəbul imtahanlarından yüksək nəticə göstərərək 490 bal topladım və ilk seçimim BDU oldu. Jurnalistika fakültəsinə daxil oldum, 4 il nüfuzlu müəllimlərdən dərs aldım. Belə ki, buranın ən əsas üstünlüklərindən biri illərin təcrübəsinə malik müəllimlərinin olmasıdır. Çünki bir çox müəllimlərimiz hələ universitetin ilk yarandığı zamanlardan burada dərs deyən şəxslərdən təhsil alıblar. Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alan Günel Məhərrəmova deyir ki, mən qəbul imtahanlarında 610 bal toplayaraq ali təhsil almaq üçün Bakı Dövlət Universitetini seçdim, çünki BDU təhsilimizin flaqmanıdır. Qeyd edək ki, şəhid mayor Fəqan Xudaverdiyevin oğlu Elcan Xudaverdiyev Bakı Dövlət Universitetinin ekologiya fakültəsinə, şəhid gizir Mayis Səmədovun qızı Məleykə Səmədova isə dövlət və ictimai münasibətlər fakültəsinə daxil olub.

Bu gün BDU 20 mindən çox tələbəni gələcəyə hazırlayır, onların qarşıdakı illərinə işıq saçır. Yüzlərlə müəllimi olan qocaman ali təhsil müəssisəsi hər tələbənin, gəncin həyatında mühüm rol oynayır. Belə ki, universitetə bu il də daxil olan şəhid övladlarına da hər zaman diqqət göstərilir.

Azərbaycanın ən perspektivli universitetlərindən olan BDU hələ qarşıdakı illərdə bir çox gənc nəslin yetişməsinə töhfələr verəcək, Azərbaycan gənclərinin həyatında mühüm izlər qoyacaq.

**Ləman TƏHMƏZ.**
**"Respublika".**